**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**KATRİN PAYKANİ HEYDƏR QIZI**

# İRAN İSLAM RESPUBLİKASININ DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ YERİ VƏ İNKİŞAF STRATEGİYASI

İxtisas: 5307.01 - İqtisadi nəzəriyyə
5310.01 - Dünya iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasında yerinə yetirilib.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Məhəmmədhəsən Xanlar oğlu Meybullayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Dünyamalı Əmir oğlu Vəliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Seyfəddin Sabir oğlu Səməndərov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət İqtisad Universiteti

Dissertasiya işinin müdafiəsi 26 may 2015-cü il tarixində saat $16^{00}$-da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 21 aprel 2015-ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dosent **F.Q.Musayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Son illər dünya ölkələrinin iqtisadi sahədə inteqrasiya əlaqələri getdikcə artmaqdadır. Dünyanı əhatə edən iqtisadi, siyasi, həmçinin mədəni-mənəvi proseslərdə əks olunan qloballaşma tendensiyası iqtisadi proseslərdə daha intensiv səciyyə daşıyır.

1979-cu il İran İslam inqilabından sonra İran İslam Respublikası ilə bəzi Qərb dövlətlərinin və Amerika Birləşmiş Ştatları arasında olan iqtisadi əlaqələr xeyli zəiflədi. İraqla səkkiz il davam edən müharibə, bəzi Qərb dövlətləri tərəfindən İrana qoyulan embarqolar və iqtisadi sanksiyalar İran iqtisadiyyatına ciddi zərər vurdu.

XX əsrin 80-ci illərindən başlayaraq İranda həyata keçirilən iqtisadi və siyasi, xüsusilə, elm, təhsil və səhiyyə sahələrində həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının rəqabətqabiliyyətlilik potensialını xeyli gücləndirsə də neft gəlirlərindən asılılıq dayanıqlı inkişafa səbəb olmayıb.

Bütün dünya ölkələrində neft-qaz məhsullarına olan tələbatın getdikcə artması, İran iqtisadiyyatının inkişafına müəyyən qədər müsbət təsir göstərib. Amma belə gəlirlərin artması digər neft ölkələrində olduğu kimi İranda da qeyri-neft sektorunun inkişafına mənfi təsir göstərib. Ölkə iqtisadiyyatına ixrac əməliyyatlarından daxil olan gəlirin 82 faizi məhz neft-qaz sektorunun payına düşür. İranın iqtisadi və siyasi sahədə dünya birliklərinə inteqrasiyası zəifdir. Dünya təsərrüfat sisteminə inteqrasiyanın zəif olması İranın xarici ticarət əlaqələrinə, İran iqtisadiyyatına birbaşa xarici investisiyaların daha az qoyulmasına, həmçinin İranla digər ölkələr arasında turizm əlaqələrinin kifayət qədər olmamasına və sair səbəb olub. Amma sadaladığımız bu sahələrin hər biri üzrə və dünya iqtisadiyyatına tamhüquqlu üzv kimi inteqrasiya olunması üçün İranın kifayət qədər potensial imkanları var.

Beləliklə, qeyd etmək olar ki, İran İslam Respublikasının dünya təsərrüfat sisteminə inteqrasiya problemlərinin tədqiqi, İranın dünya təsərrüfat sistemində rəqabət qabiliyyətliyini təmin edən müqayisəli üstünlük sahələrinin müəyyən edilməsi, inteqrasiya proseslərinə mane olan qanunvericilik islahatlarının aparılması zərurətinin elmi əsaslandırılması həm elmi, həm də praktiki cəhətdən aktualdır.

**Tədqiqat mövzusunun məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi İran İslam Respublikasının dünya təsərrüfat sisteminə inteqrasiya prosesində müqayisəli üstünlük sahələrinin müəyyən edilməsindən ibarətdir. Nəzərdə tutulmuş məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulub:

- İslam İnqilabından əvvəlki dövrdə İran iqtisadiyyatının əsas xüsusiyyətlərinin və dünya iqtisadiyyatında yerinin öyrənilməsi;
- İran İslam Respublikasının iqtisadi modelinin bəzi xüsusiyyətlərinin araşdırılması;
- İran İslam Respublikasının dünya iqtisadiyyatına inteqrasiya problemlərinin araşdırılması;
- İran İslam Respublikasına tətbiq edilən iqtisadi sanksiyaların sosial-iqtisadi təsirlərinin öyrənilməsi;
- İran iqtisadiyyatının strateji müqayisəli üstünlük sahələrinin müəyyən edilməsi və struktur prioritetlərinin araşdırılması.

**Problemin öyrənilmə səviyyəsi.** İran İslam Respublikasının dünya təsərrüfat sistemində yeri və inteqrasiya proseslərinin inkişaf perspektivləri ilə bağlı nəzəri-konseptual və praktiki məsələlər dünyanın bir çox almləri və ekspertləri tərəfindən öyrənilib. Philip Dew, Massoud Karshenas, Yalda Eshraghi, Ali Mohammadi, Richard W. Bulliet, Ali Gheissari, Arash Duero, Willem M Floor, Arang Keshavarzian, Terri Morrison, Alfons Trompenaars, Hassan Hakimian, Terence Brake və sair tanınmış tədqiqatçılar İran iqtisadiyyatında müxtəlif problemləri, uğurları və perspektivləri araşdırmışlar. İran İslam Respublikasında Seyfulla Murad, Seyf Əhməd, Behkiş Məhəmməd Mehdi, Kalbasi Həsən, Nurbəxş Mahmud Taheri Saleh, Bidahad Bicən, Muradi Məhəmmədəli, Pur Moğim, Seyid Cavad və başqalarının elmi əsərlərində İran iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası məsələlərinə geniş yer verilib.

Lakin, adlarını çəkdiyimiz bu və ya digər müəlliflərin apardıqları tədqiqatların əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, bu tədqiqatlarda müasir dövrdə İran İslam Respublikasının dünya təsərrüfat sisteminə inteqrasiya məsələləri, idxal-ixrac proseslərinin təkmilləşdirilməsi, beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq imkanları, xarici və daxili iqtisadi təhlükəsizlik məsələləri, yeni inkişaf strategiyaları və s. tədqiqat predmeti kimi kompleks şəkildə kifayət qədər tədqiq olunmayıb. Bu əsərlərdə əsas çatışmazlıq ondan ibarətdir ki, bir qisim müəlliflər İranın dünya iqtisadiyyatına geniş inteqrasiya olunmamasına əsas səbəb kimi İran daxili siyasi motivləri, digərləri isə xarici siyasi motivləri  əsas gətirir. Biz isə heç bir siyasi motivi əsas gətirmədən İran iqtisadiyyatının müasir vəziyyətini və iqtisadi potensialını araşdıraraq dünya iqtisadiyyatını geniş inteqrasiyası üçün strateji struktur prioritetlərinin və müqayisəli üstünlük sahələrinin müəyyən edilməsinə çalışmışıq.

**Tədqiqatın obyekti** İran islam Respublikasının iqtisadiyyatı və onun xarici iqtisadi fəaliyyətidir.

**Tədqiqatın predmetini** İran İslam Respublikasının dünya təsərrüfat sistemində digər ölkələrlə iqtisadi münasibətlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Tədqiqatın nəzəri və metodoloji əsaslarını tədqiq olunan problem üzrə yerli və xarici iqtisadçı alimlərin nəzəri və praktiki müddəaları, həmçinin ölkədə bu sahədə qəbul edilən normativ-hüquqi sənədlər təşkil edir. Tədqiqat prosesində sistemli təhlil, müqayisə, qruplaşdırma, sintez metodlarından istifadə edilib.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını İranın Ticarət, Sənaye və Mədən Nazirliyinin, Xarici Ticarət Statistikasının hesabatları, xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məlumatlar, ölkədə bu sahədə aparılan tədqiqat işlərinin nəticələri, həmçinin Dünya Bankının məlumatları təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- İran İslam Respublikasına tətbiq edilən iqtisadi sanksiyaların iqtisadi və sosial-iqtisadi təsirləri araşdırılaraq, ölkə iqtisadiyyatının struktur prioritetləri müəyyən edilmişdir.
- İran İslam Respublikasının dünya təsərrüfat sisteminə inteqrasiya prosesi İslam İnqilabından əvvəlki dövrdə reallaşan beynəlxalq iqtisadi əlaqələrlə müqayisəli təhlil edilərək qiymətləndirilib.
- İran İslam Respublikasının iqtisadi modelinə "tam açıq olmayan" və "tam qapalı olmayan" iqtisadiyyat kimi yanaşılaraq, bu modelin əsas xüsusiyyətləri müəyyən edilib;
- Qloballaşma şəraitində İranın dünya təsərrüfat sisteminə inteqrasiyasının əsasən ticarət sahəsindəki əməkdaşlıq səviyyəsində məhdudlaşdığı müəyyən edilib
- İranın iqtisadi təhlükəsizliyinin qorunması və davamlı inkişafı üçün dünya təsərrüfat sisteminə geniş inteqrasiyasının qaçılmaz olması əsaslandırılıb.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, alınan əsas nəticələr və hazırlanan təkliflər İran İslam Respublikasının iqtisadi və milli təhlükəsizliyinin qoruması şərti ilə dünya təsərrüfat sisteminə daha geniş inteqrasiyası üçün iqtisadi siyasətin, qanunvericiliyin və iqtisadi diplomatiyanın və iqtisadi strategiyanın hazırlanmasında istifadə edilə bilər. Həmçinin tədqiqatın nəticələri İran iqtisadiyyatının xüsusiyyətləri və İran iqtisadi modeli ilə tanış olmaq istəyən iqtisadçılar və siyasətçilər üçün də faydalı ola bilər. Bu nəticələrdən «Makroiqtisadiyyat», «Dünya iqtisadiyyatı» «Beynəlxalq iqtisadi münasibətlər», "İqtisadi coğrafiya", "Regionşünaslıq" və sair digər fənlərin tədrisində də istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın əsas elmi müddəaları və

tədqiqatdan irəli gələn təkliflər ölkədə və xaricdə keçirilən elmi-praktiki konfranslarda, həmçinin dərc edilmiş elmi məqalələrdə öz əksini tapıb. Tədqiqatdan irəli gələn bir sıra elmi müddəalar təhriri məruzə şəklində istifadə üçün qəbul edilib. Dissertasiya işinin əsas məzmunu və nəticələri 14 elmi məqalə və tezislərdə öz əksini tapıb.

**Tədqiqatın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və təkliflərdən ibarət olmaqla 170 səhifəni (33 cədvəl, 8 diaqram) əhatə edir.

## Dissertasiya işinin mündəricatı


**Giriş**

**I Fəsil. Dünya təsərrüfat sistemində müxtəlif ölkələrin iqtisadi mövqeyinin müəyyən edilməsinin nəzəri metodoloji əsasları**

1.1. İran iqtisadiyyatının dünya təsərrüfat sistemində yerinin müəyyən olunmasının əsas prinsipləri

1.2. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının zəruriliyi

1.3. Dünya təsərrüfat sistemində İran iqtisadiyyatının inkişaf məsələləri

**II Fəsil. Qloballaşan dünya təsərrüfat sistemində İranın xarici iqtisadi əlaqələrinin əsas xüsusiyyətləri**

2.1. Qloballaşma prosesi və İranın xarici iqtisadi əlaqələrinin inkişafının konseptual əsasları.

2.2. İranın idxal-ixrac proseslərinin son illər üzrə dinamikası, iqtisadi strukturu və formalaşma istiqaməti

2.3. İranın ÜTT ilə əməkdaşlığı məsələləri və əməkdaşlığın yeni inkişaf perspektivləri

**III Fəsil. Dünya təsərrüfat sistemində İranın xarici iqtisadi əlaqələrinin inkişafının strateji istiqamətləri**

3.1. İxrac yönlü məhsul istehsalında neft və qeyri-neft sektorlarının yeri və ixrac idxal strukturunun təkmilləşdirilməsi məsələləri

3.2. Milli enerji təhlükəsizliyinin xarici iqtisadi əlaqələr strategiyasındakı yeri

3.3. Beynəlxalq iqtisadi embarqoların İranın daxili bazarına təsiri

3.4. Xarici iqtisadi əlaqələrin tənzimlənməsi mexanizmləri və onun təkmilləşdirilməsi yolları

**Nəticə.**
**İstifadə olunmuş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. İslam İnqilabından əvvəlki dövrdə İran iqtisadiyyatı dünya iqtisadiyyatına tam açıq idi. Lakin İran iqtisadiyyatı neft gəlirlərindən daha çox asılı olduğundan qeyri-neft sektorunun inkişafı xeyli zəif idi. Ölkə iqtisadiyyatında "Holland sindromu" ciddi hiss edilirdi. Əhalinin təhsil və səhiyyə səviyyəsi orta dünya səviyyədən xeyli aşağı idi.**

Mübaliğəsiz demək olar ki, müasir sivilizasiyanın iqtisadi əsası XIX əsrin ortalarından başlayaraq neft enerjisi ilə bağlıdır. Elə o zamanlardan başlayaraq dünya siyasətində və iqtisadi həyatında neft ehtiyatlarının və nəqlinin nəzarətdə saxlanması böyük dövlətlərin xarici siyasətlərində prioritet məqsəd kimi qoyulmağa bağladı. XX əsrin əvvəllərində baş verən Birinci dünya müharibəsi, ortalarında baş verən İkinci Dünya müharibəsi də mahiyyət etibarı ilə böyük güclərin neft uğrunda müharibələri idi. Bu müharibələr nəticəsində İran ərazisi əvvəl Böyük Britaniyanın, sonra isə Amerika Birləşmiş Ştatların tam nəzarətinə keçdi. ABŞ-ın İran siyasi həyatında aparıcı mövqeyə malik olması onun, demək olar ki, bütün təsərrüfat həyatının da ABŞ firmaları və maliyyə strukturları nəzarətində olması demək idi. İranda neft sənayesinin 1953-cü ildə milliləşdirilməsinə edilən cəhdin uğursuzluqla nəticələnməsi sonrakı illərdə İran iqtisadiyyatının ABŞ maliyyə qurumlarından asılılığını daha da gücləndirdi.

İnqilaba qədərki İranın xarici iqtisadi əlaqələrinin əsas xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar: **Birincisi**, İranın ixrac gəlirlərinin əsas hissəsi xam neft ixracı ilə bağlı idi. 1960-cı ildə xam neft ixracından gələn gəlirlər ölkəyə daxil olan valyutanın 88%-ni, 1977-ci ildə isə 97%-ni təşkil edirdi. Neft sənayesinin ÜDM-də payı ildən ilə artırdı. Belə ki, 1960-cı ildə neft sənayesi ÜDM-də 15% təşkil etdiyi halda, 1973-cü ildə 35% qədər yüksəldi. Kənd təsərrüfatı məhsullarının ÜDM-də payı 1962-ci ildə 32% olduğu halda 1977-ci ildə 8% qədər azalmışdı.

**İkincisi**, ixrac məhsulları içərisində aparıcı paya malik olan neft sənayesi sektoru xarici monopolist kapitalın nəzarətində idi. Xüsusilə, o zaman "Britaniya-İran şirkəti", hazırda isə "British Petrolium" (BP) adlandırılan neft şirkəti İran nefti üzərində tam hakim idi. Elə bu səbəbdən də 1953-cü ildə ABŞ və Böyük Britaniyanın birbaşa müdaxiləsi ilə neft

sənayesinin milliləşdirilməsi əleyhinə çevriliş baş verdi. 1965-1974-cü illəri əhatə edən dövrdə, xüsusilə ərəb ölkələrinin ABŞ-a neft embarqosu tətbiq etdikləri dövrdə İran ABŞ-ın enerji təminatında mühüm rol oynamışdı. Həmin dövrlərdə İranda hər gün 5-6 milyon barel neft hasil edilirdi. İnqilaba qədərki İran iqtisadi modelini xam neft və digər təbii sərvətlərin ixrac gəlirlərinə əsaslanan "istehlakçı iqtisadiyyat" kimi xarakterizə etmək olar.

**Üçüncüsü,** İranda yerli sahibkarlara nisbətən xarici sahibkarlara (daha doğrusu, ABŞ və Böyük Britaniya ölkələrinin rezidentləri üçün) daha əlverişli biznes mühiti yaradılmışdı. Xarici investorlar üçün nəzərdə tutulan vergi və gömrük güzəştləri onları yerli sahibkarlara nisbətən üstün mövqeyə malik edirdi. Bu isə ölkədə qeyri-sağlam rəqabət mühiti yaradırdı;

**Dördüncüsü**, neft gəlirlərinin yaratdığı valyuta ehtiyatlarının ilbəil artmasına baxmayaraq 1970-ci ildən başlayaraq kəskin artan inflyasiya iqtisadiyyata ciddi zərbə vururdu. 1970-ci ildə inflyasiya səviyyəsi 1,5% olduğu halda, 1974-cü ildə 15,5%, 1977-ci ildə isə 25% olmuşdu.

**Beşincisi,** cəmiyyətin müxtəlif sosial qrupları arasında ciddi polyarlaşma təbəqələşmə yaranmışdı. Əhalinin, xüsusilə kənd və şəhər əhalisinin gəlirləri və həyat səviyyəsi arasında ciddi fərqlər yaranmışdı. Əhalinin 60% çoxu savadsız idi. Təhsil və səhiyyə əksəriyyət üçün əlçatan deyildi. Mütləq yoxsul əhali İran əhalisinin 30%-dən çoxunu təşkil edirdi. BVF-nun verdiyi məlumatlara görə, ölkədə doğulanda gözlənilən ömür uzunluğu isə xeyli aşağı, təqribən 55 il idi. Alıcılıq qabiliyyəti pariteti əsasında hesablanan adambaşına ümumi milli gəlir 1980-ci ildə 7,2 min ABŞ dolları idi. Bu 2012-ci il üçün olan rəqəmdən 35% azdır.

**2. İrana tətbiq edilən iqtisadi sanksiyalar iqtisadi inkişafa ciddi maneələr yaratsa da ölkənin ümumi iqtisadi inkişaf istiqamətini dəyişə bilmədi.**

1979-cu il İslam İnqilabından dərhal sonra İran əsasən Amerika tərəfindən birtərəfli embarqolarla üzləşdi. Sonrakı illərdə ABŞ-ın birbaşa təhriki ilə İran bir neçə Qərbi Avropa ölkəsi tərəfindən də bəzi məhsullara görə embarqoya məruz qaldı. İrandan neft və qaz idxalına embarqonun doyulması İran iqtisadiyyatına daxil olan gəlirlərin xeyli dərəcədə azalmasına və iqtisadiyyatda kapital qoyuluşunun zəifləməsinə səbəb oldu.

İrana tətbiq edilən embarqoların və iqtisadi sanksiyaların birbaşa təsir göstərdiyi sahələrdən biri də bank sistemidir. İranın bank sisteminin beynəlxalq maliyyə sistemindən izolyasiyası İranda xüsusi sahibkarlığın beynəlxalq iqtisadi fəaliyyətinə xeyli çətinlik yaratdı. Ölkədən ölkəyə valyuta köçürmələrin və qeyri-nağd hesablaşmaların olmaması səbəbindən İran sahibkarları daha çox barter əməliyyatlarına üstünlük verməli olurlar. Bu isə

ölkə daxilində banklara olan etibarın kəskin azalmasına, xarici valyutaya olan tələbin artmasına və xarici valyutanın ölkədən çıxarılmasına şərait yaradır.

Banklara tətbiq edilən sanksiyalar ölkə iqtisadiyyatına qoyulan investisiyaların idxal və ixrac əməliyyatlarının həcminə də ciddi təsir göstərir. İran iqtisadiyyatına investisiya qoymaq istəyən investor milli valyutanın və qoyulan investisiyanın gələcək taleyindən həmişə narahatdır. Sanksiyalar investisiya mühitinə, onların təhlükəsizliyinə təhdid yaradır.

Sanksiyalar idxal və ixrac əməliyyatlarının sərbəst həyata keçirilməsinə ciddi maneçilik yaradır. İrandan ixrac edilən və ya İrana idxal edilən mallar əksər hallarda üçüncü ölkələrin vasitəsilə reallaşır. Bu isə əlavə məsrəflərin və vaxt itkisinin yaranması deməkdir. İqtisadi sanksiyaların tətbiqi nəticəsində İran sahibkarları çox hallarda İran mallarının rəqabət qabiliyyətliliyini qoruya bilmirlər və layiq olduqlarından daha az mənfəətlə razılaşırlar.

Embarqolar daşınma ilə bağlı problemlər də yaradır. İran gəmiçiliyi qarşısında qoyulan məhdudiyyətlər, həmçinin dəmir yolu daşımalarında mövcud çatışmazlıqlar xarici ticarətdə daha çox avtomobil daşınmalarına üstünlük verməyə səbəb olur. Bu isə əlavə xərclər yaradaraq İran mallarının qiymətini artırır və rəqabət qabiliyyətini azaldır.

İranın xarici iqtisadi əlaqələrinin inkişafına ciddi maneələrdən biri də İran vətəndaşları olan sahibkarlara xarici ölkə vizalarının verilməsindəki çətinliklərdir. İrana qarşı qoyulan sanksiyalar İran vətəndaşları üçün əlavə səfər problemləri yaradır. Viza üçün əlavə bürokratik əngəllər, əlavə vaxt itkisi İran vətəndaşları olan sahibkarların və iş adamlarının digər ölkələrdə investisiya yatırmasına və ya ticarət fəaliyyəti ilə məşğul olmasına məhdudiyyətlər yaradır.

**3. İslam İnqilabından sonra İranda hazırlanan yeni iqtisad modelə əsasən İran iqtisadiyyatı nə “tam qapalı”, nə də “tam açıq” iqtisadiyyat deyil. İqtisadiyyata dövlət müdaxiləsi genişdir. Lakin kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılıb. Təbii ehtiyatlar, xüsusilə neft və qaz ehtiyatları, həmçinin onların hasilatından, emalından və ixracından ölkəyə daxil olan gəlirlər dövlətə məxsusdur.**

1979-cu ildə İran İslam İnqilabından sonra İranda köklü siyasi islahatlarla yanaşı mühüm iqtisadi islahatlar da həyata keçirildi. İqtisadiyyat sahəsində həyata keçirilən əsas iqtisadi islahatlar bunlar idi: 1) mühüm sənaye sahələrinin, o cümlədən neft və qaz sənayesinin və bankların milliləşdirilməsi; 2) yeni konstitusiyaya görə dövlət mülkiyyətinin aparıcı olması şərti ilə iqtisadiyyatın üç sektora - “dövlət”, “kooperativ” və “xüsusi” sahələrə bölünməsi; 3) İqtisadiyyat üzərində nəzarətin gücləndirilməsi

məqsədilə mərkəzi planlaşdırmanın reallaşdırılması. Ali dini liderin, prezidentin və Məclisin rəhbərliyi ilə 5 illik sosial-iqtisadi plan hazırlanır; 4) Dövlət qiymət və subsidiyalar üzərində də nəzarəti həyata keçirir.

İran dövlətinin uzun müddət üçün nəzərdə tutulan iqtisadi məqsədi ondan ibarətdir ki, ölkənin iqtisadi müstəqilliyi və təhlükəsizliyi təmin edilsin. İqtisadi təhlükəsizliyin əsas amili kimi isə işsizliyin tam aradan qaldırılması, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. Keçən əsrin 60-cı illərində kənd təsərrüfatında baş verən ciddi geriləmə İslam İnqilabından sonra da öz təsirini göstərməkdə davam etdi. Hətta 1990-cı illərin axırlarında İranda ərzaq mallarının əsas hissəsi xarici ölkələrdən idxal olunurdu. Əhalinin sayının kəskin artması, ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, kənd təsərrüfatı sektorunun zəifləməsi, sənaye sahələrinin inkişafı və digər mühüm səbəblər İranda urbanizasiyanın sürətlənməsinə təkan verdi. Xüsusilə, İslam İnqilabından sonra səkkiz ilə yaxın davam edən İran-İraq müharibəsi ölkə iqtisadiyyatına ciddi zərbə vurdu. 300 mindən çox insan itirən, 500 mindən çox yaralısı olan İran bu müharibədə 500 milyarddan çox iqtisadi zərər gördü. Məhz yeni ideologiyaya və modelə əsaslanan İran iqtisadiyyatı qısa bir zamanda iqtisadi infrastrukturları bərpa edərək, sənaye sahələrini, təhsil və səhiyyə sektorunu inkişaf etdirə bildi.

İslam ideologiyasına əsaslanan İran iqtisadiyyatı geniş ictimai sektora malik olan "qarışıq", yəni "azad bazar iqtisadiyyatının və planlı iqtisadiyyatın əsas dəyərlərini birləşdirən" iqtisadiyyatdır. Elə bu mənada İran iqtisadiyyatını nə "tam qapalı", yəni "yalnız planlı iqtisadiyyata əsaslanan", nə də "tam azad", azad bazar prinsiplərinə əsaslanan iqtisadiyyat hesab etmək olmaz. İran iqtisadiyyatının təqribən 60% hissəsi planlı iqtisadiyyat sahələridir. Xüsusilə, neft və qaz sənayesi planlı iqtisadi sahələrdir və hökumətin tam nəzarətindədir. Lakin, bu sahələrin də təqribən 40%-i Tehran Birjasında açıq bazara cəlb edilib.

İranda liberal bazar iqtisadiyyatı üçün xarakterik olan kiçik və orta sahibkarlığın azad inkişafı təmin edilib. Kiçik və orta sahibkarlığın inkişafı üçün İran dövləti geniş imkanlar, o cümlədən maliyyə dəstəyi verir. "Doing Buisness" reytinqlərinə əsasən İranda firmaların yaradılması və fəaliyyəti üçün ciddi maneələr yoxdur. Məsələn, firmaların yaradılması reytinq cədvəlində İran 189 ölkə arasında 62-ci mövqedədir. Yaxud biznes fəaliyyəti üçün kreditlərin alınması reytinqinə görə 89-cu mövqedədir.

Lakin "The Heriatage Foundation" məlumatlarına görə İran iqtisadi azadlıq indeksinə görə 171-ci yerdədir və daha az iqtisadi azad ölkələr siyahısındadır. Əlbəttə, bu qiymətləndirmədə dövlətin iqtisadiyyata

müdaxiləsi dərəcəsi, xüsusilə diqqət mərkəzində olduğundan İran daha az iqtisadi azad ölkə hesab edilib. Bu hesabata əsasən, kapital qoyuluşu, maliyyə təminatı və mülkiyyət hüququ göstəricilərinin azadlığına görə İran 100 ballıq göstəricilərə görə müvafiq olaraq 0, 10, bala sahib olmuşdur. Bu göstəricilər İran iqtisadiyyatının ən kiçik göstəriciləri hesab olunur. İranın zəif nöqtələri daha çox özünü 5 göstəricidə - kapital qoyuluşu azadlığı, maliyyə təminatı azadlığı, mülkiyyət hüququ azadlığı, maliyyə fəsadlarından azadlıq və ticarət azadlığı göstəricilərində göstərir. Bu hesabatda kapital qoyuluşu azadlığı və azad ticarət üstünlüyünün aşağı olmasının amilləri kimi ticarət lisenziyaları sisteminin mövcudluğu, inzibati bürokratiya və yuxarı qiymətlər göstərilmişdir. Sözügedən hesabata əsasən, səmərəsiz dövlət və qeyri-dövlət şirkətləri, eləcə də yarı dövlət müəssisələri İranın qeyri-neft iqtisadiyyatının böyük bir hissəsini öz əllərinə almış, daxili kreditlərin, dövlətin ayırdığı xarici valyutanın və ümumi müqavilələrin əldə olunmasında öz mənafelərini təmin edirlər.

**4. İslam İnqilabından sonra İran İslam Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası ilə bağlı müxtəlif problemlərin olmasına baxmayaraq, xarici ticarət dövriyyəsi artmağa başlayıb.**

İslam İnqilabından sonra İranda iqtisadi hədəflər, maliyyə sistemi, iqtisadi struktur, dünya iqtisadiyyatı ilə əlaqələrin mahiyyəti və sair məsələlər ciddi dəyişikliyə uğradı. Ölkədə ciddi struktur dəyişiklikləri real iqtisadiyyata da təsirsiz ötüşmədi. İnqilabın ilk illərində ölkədə adambaşına ÜDM həcmi 1970-ci illərin qiymətləri ilə xeyli azaldı. Milli valyutanın dəyəri kəskin şəkildə aşağı düşdü. Xarici ölkələrlə mal dövriyyəsi ölkə iqtisadiyyatına yönələn xarici investisiyaların da miqdarı xeyli azaldı.

İran-İraq müharibəsi, ölkədən xeyli sayda ixtisaslı kadrların axını, ABŞ və bəzi Qərb ölkələrinin İrana tətbiq etdiyi sanksiyalar nəticəsində digər makro-iqtisadi göstəricilər üzrə də İran iqtisadiyyatı zəiflədi. Ölkənin ixrac həcmi 1980-ci ildən başlayaraq kəskin zəiflədi. 1980-ci ildə 1979-cu illə nisbətən ixracın həcmi 2 dəfə azaldı. Yalnız 2004-cü ildə İranın ixrac mallarının həcmi 1979-cu il səviyyəsinə qədər yüksəldi.

İnqilabın ilk illərində İranda adambaşına idxal mallarının həcmi 1979-cu illə müqayisədə bir qədər artdı. Sonrakı illərdə isə 200-300 dollar həcmində qərarlaşdı. 2004-cü ildən başlayaraq idxal mallarının da həcmi xeyli artıb. Son on illikdə İranın xarici ticarət dövriyyəsinin ümumi həcminin artması İrana qarşı sanksiyaların tətbiq olunmasına, həmçinin İran iqtisadi modelində idxal mallarından asılılığın aradan qaldırılmasının strateji məqsəd kimi qoyulmasından asılı olmayaraq İranın xarici iqtisadi

əlaqələrinin genişlənməsindən xəbər verir. 2013-cü ildə ÜDM-in həcmi 1970-ci illərlə müqayisədə 62 dəfə artıb.

İran iqtisadiyyatında istehlak xərclərinin dinamikası da eyni tendensiyanı təsdiq edir. İstehlak xərclərinin həcmi də inqilabdan dərhal sonra kəskin şəkildə azalmış, bir neçə il ciddi artım olmasa da 2004-2005-ci illərdən başlayaraq sürətlə artmağa başlamışdır. İranın həm xarici ticarət dövriyyəsi, ÜDM həcmi və digər makro-iqtisadi göstəricilərin dinamikası 2004-2005-ci illərdən sonra İran iqtisadiyyatının davamlı şəkildə artma mərhələsi kimi qiymətləndirmək olar.

**5. İran iqtisadiyyatına yönələn xarici investisiyaların həcmi yüksək deyil, lakin İranın xarici iqtisadi əlaqələrinin genişlənməsində xarici investisiyaların rolu getdikcə artır.**

İran iqtisadiyyatına yönələn xarici investisiyaların həcmi İslam İnqilabından sonra kəskin azaldı. Bu, təkcə İran İslam Respublikasının yeni iqtisadi modelə keçməsi və yeni struktur islahatları ilə deyil, həm də ölkəyə tətbiq edilən iqtisadi sanksiyalarla bağlı idi. Xüsusilə, İraqla müharibə zamanı ölkədə investisiya mühitinin olmaması xarici investorları xeyli çəkindirirdi. Sonrakı illərdə də ölkədə ümumi iqtisadi və siyasi vəziyyət xarici investorların diqqətini cəlb etmirdi.

2005-ci ildən sonra ölkədə reallaşan bəzi iqtisadi islahatlar və daxili investisiyaların iqtisadi inkişaf üçün kifayət etməməsi İran hökumətini xarici investorlar üçün əlverişli şərait yaratmağa sövq etdi. Hazırda İranda xarici investisiyaların cəlb edilməsi üçün İnvestisiyalar üzrə Ali Şura fəaliyyət göstərir. Bu Şuranın tərkibinə bir neçə nazirliklərin rəhbərləri, o cümlədən maliyyə və iqtisadiyyat naziri, xarici işlər naziri daxildirlər. Xarici investisiyaların cəlb edilməsinə və investorlar üçün əlverişli biznes mühitinin yaradılmasına İqtisadiyyat və Maliyyə nazirliyi birbaşa cavabdehdir və onun nəzdində “investisiyalar, iqtisadi və texniki əməkdaşlıq üzrə təşkilat” fəaliyyət göstərir.

Hazırda İran İslam Respublikasının qanunvericiliyinə görə iki tip xarici investisiyaların ölkə iqtisadiyyatına yönəldilməsi mümkündür. Birincisi, birbaşa xarici investisiyalar. İkincisi, müxtəlif formalarda imzalanmış müqavilələr əsasında birbaşa xarici investisiyalar. Bu müqavilələr müxtəlif cür bağlana bilər. Məsələn, investisiyalar hər hansı bir layihənin maliyyələşməsi məqsədilə ölkəyə daxil ola bilər. Bu halda İran tərəfi investorun qoyduğu maliyyəni layihə əsasında inşa edilən obyekt fəaliyyət göstərdikdən sonra qaytarır. Yaxud İran tərəfi investorla inşa edilən obyektin istehsal etdiyi məhsul ilə hesablaşa və ya bu məhsullar investorla hesablaşan üçüncü tərəfə verilə bilər. Müqavilənin başqa bir

forması isə xarici investorla inşa edilən obyektin gəliri ilə hesablaşmasını nəzərdə tutur. İnvestor inşa edilən obyektin sahibliyini tam amortizasiya vaxtı başa çatana qədər özündə saxlayır.

İran dövləti də xarici investorların cəlb edilməsi üçün mümkün siyasi, iqtisadi, sosial, maliyyə islahatlarından istifadə edir. Bu məqsədlə "xarici investisiyaların cəlb edilməsi və müdafiəsi qanunu" da qəbul edilib.

Lakin xarici investorların maraqlarını qorumaq üçün zəruri olan qanunların qəbuluna baxmayaraq, bu sahədə müəyyən məhdudiyyətlər hələ də qalır. Məsələn, İran ərazisində xarici investora bütövlükdə aid olan sahibkarlıq subyekti yaratmağa İran qanunları icazə vermir. İran iqtisadiyyatının bütün sektorlarında yaradılan xarici investisiyalı müəssisələrdə xarici investorun payı 25%-dən çox, sənaye sektorunda isə 35%-dən çox olmamalıdır. Lakin neft və qaz sektoru istisna olmaqla, ixrac üçün nəzərdə tutulan mallar istehsal edən sahələrdə belə məhdudiyyət yoxdur. İran qanunları təbii ehtiyatların, torpaq sahələrinin xarici investorlara mülkiyyətə verilməsini də qadağan edir.

İran İslam Respublikası xarici investisiyaları ölkəyə cəlb etmək üçün azad iqtisadi zonalar yaradır. Bu zonalarda birbaşa xarici investisiyalar üçün daha əlverişli biznes mühiti yaradılır. Azad iqtisadi zonalarda 100% xarici investisiyalı müəssisələr yaratmağa icazə verilir. Bu halda müəssisələr 15 il ərzində vergilərdən də azad edilirlər. Azad iqtisadi zonalarda özəl bankların və sığorta şirkətlərinin yaradılmasına da icazə verilir.

İran dövləti xarici investorları ölkəyə cəlb etmək üçün özəlləşdirilən dövlət mülkiyyətinin aksiyalarının müəyyən hissəsinin xarici investorlara satışına da icazə verir. Lakin bu aksiyaların məbləği əhaliyə satılan məbləğdən xeyli az olur və nəzarət paketinin xarici investorda olmasına icazə verilmir.

Beləliklə, son illərdə xarici investisiyaların cəlb edilməsi ilə bağlı İran hökumətinin həyata keçirdiyi islahatlar artıq öz bəhrəsini verməkdədir. Belə ki, 1993-2009-cu illər ərzində İran iqtisadiyyatına cəlb edilən investisiyaların ümumi həcmi 34,2 milyard ABŞ dolları olub. Bu məbləğin əsas hissəsi (20 milyard ABŞ dollarından çoxu) sənaye sahələrinə yönəldilib. Royal Dutch Shell (Hollandiya), Petronas (Malayziya), Total Fina Elf (Fransa), ENI Agip (İtaliya) kimi nəhəng transmilli şirkətlər İran iqtisadiyyatına investisiya yönəldən əsas xarici investorlardır. Əlbəttə, son illər İran İslam Respublikasının nüvə proqramı ilə bağlı Qərblə münasibətlərinin gərginləşməsi İran iqtisadiyyatına yönələn investisiyaların həcminə də mənfi təsir göstərib. Lakin inkişaf etməkdə olan Şərqi Asiya

ölkələri, xüsusilə Çin getdikcə İran iqtisadiyyatına yönələn investisiya həcmini artırmağa maraq göstərir.

Beləliklə, İran iqtisadiyyatına yönələn xarici investisiyaların həcminin yüksək olmaması səbəblərini belə qruplaşdırmaq olar: 1) İran islam Respublikasına Qərb dövlətləri tərəfindən tətbiq edilən sanksiyalar; 2) İranda xarici investisiyalarla bağlı tətbiq edilən məhdudiyyətlər; 3) İran şirkətlərində və maliyyə sistemində tətbiq edilən idarəetmənin çətinliyi və bürokratik əngəllərin çox olması.

**5. İran İslam Respublikasına tətbiq edilən iqtisadi sanksiyaların iqtisadi və sosial-iqtisadi təsirləri genişdir, lakin istehlak xərclərinin həcmi və əhalinin sərəncamında olan gəlirlər regionda orta səviyyədən yüksəkdir.**

İran İslam Respublikasına tətbiq edilən iqtisadi sanksiyalar İslam İnqilabından dərhal sonra Qərb ölkələri tərəfindən tətbiq edildi. Bu sanksiyalar İran iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasına mane olan əsas səbəblərdəndir. Görünür belə sanksiyaların tətbiqinin asanlıqla mümkün olması bəzi ölkələri, xüsusilə, iqtisadi və maliyyə təzyiqlərinə məruz qalan Cənubi Amerika ölkələrini, inkişaf etməkdə olan Asiya ölkələrini, həmçinin Rusiyanı dünya təsərrüfat sisteminə inteqrasiyada ehtiyatlı hərəkət etməyə vadar edir. Belə ki, İran İslam Respublikasının dövlət idarəetməsi və ideoloji xətti ilə razılaşmayan Qərb dövlətləri bu ölkədən neft və qaz idxalına qadağa qoyaraq, ona iqtisadi çətinliklər yaratmağa cəhd göstərdilər. Sanksiyaların tətbiq edildiyi digər sahə isə bank sektoru oldu. Hər iki sahə İran iqtisadiyyatını xeyli dərəcədə dünya iqtisadiyyatından təcrid vəziyyətinə saldı. Qətiyyən inkar etmək olmaz ki, bu sanksiyalar İran iqtisadiyyatının dinamik inkişafına, əhalinin həyat şəraitinə xeyli dərəcədə mənfi təsir göstərdi. Lakin İran dövləti ona qarşı tətbiq edilən sanksiyalardan istifadə edərək ölkənin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi siyasətini prioritet kimi qarşıya qoydu. Bu siyasət "müqavimət iqtisadi siyasəti" adlanaraq artıq son otuz ildə həyata keçirilir. "Müqavimət iqtisadiyyatının" əsas hədəfi ondan ibarətdir ki, birincisi, ölkə üçün həyati vacib və ya strateji hesab olunan mallar idxal olunmamalı və ölkə daxilində istehsal edilməlidir. İkincisi, ölkə iqtisadiyyatı ciddi şəkildə diversifikasiya olunmalı və neft sektoru ilə yanaşı, qeyri-neft sektoru da inkişaf etməlidir.

Əlbəttə, demək olmaz ki, İran iqtisadiyyatı bu siyasət əsasında tam şəkildə idxal mallarından imtina etdi. Belə ki, idxalı əvəz edən malların ölkədə istehsalının genişlənməsinə baxmayaraq, İranın idxal həcmi heç də azalmadı, bəzi illərdə isə hətta artdı. Lakin idxaldan asılılığın azalması və

ölkə iqtisadiyyatının öz istehsalına güvənməsi doğrudan da baş verdi. Başqa sözlə desək, İrana idxal olunan mallara hər hansı dövrdə sanksiyalar tətbiq edilərsə, İran öz daxili potensialı ilə müəyyən müddət iqtisadi tarazlığını saxlaya bilər. Elə bunun nəticəsi idi ki, 2008-ci ildə baş verən qlobal maliyyə böhranı İran iqtisadiyyatına ciddi təsir göstərmədi.

İran İslam respublikasına 30 ildən çox müddətdə iqtisadi sanksiyaların tətbiq edilməsinə baxmayaraq əhalinin rifahı və istehlak xərcləri artmaqda davam edir. 1970-2013-cü illər ərzində İranda istehlak xərcləri otuz dəfədən çox artaraq 2013-cü ildə 243 milyard dollara yüksəlmişdi. Bu artımın müəyyən hissəsi əhalinin artması ilə bağlı olsa da (təqribən 12,4 milyard dolları) qalan hissə adambaşına istehlak xərclərinin artması ilə əlaqəlidir. Bu, son 40 il ərzində istehlak xərclərinin orta hesabla ildə 5,5 milyard dollar və ya hər il 75% artımı deməkdir. Adambaşına artım isə ildə orta hesabla 67 dollar edir.

**6. İran İslam Respublikasına tətbiq edilən iqtisadi sanksiyalar qeyri-neft sektorunun inkişafına zərurət yaratdı. İran iqtisadiyyatında xidmət sektorunun payı digər bəzi neft və qaz hasil edən ölkələrlə müqayisədə yüksəkdir.**

İran İslam Respublikasına tətbiq edilən sanksiyalar və İran hökumətinin yeni iqtisadi siyasətə üstünlük verməsi qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafına stimul verdi. 1970-2013-cü illər ərzində İranda kənd təsərrüfatının həcmi 28 dəfə artaraq 2012-ci ildə 49 milyarda çatdı. 2013-cü ildə bu rəqəm bir qədər azalaraq 41 milyard dollar olub. Kənd təsərrüfatı məhsullarının 1,5 milyard dollarlıq həcminə görə İran 1970-ci ildə dünya ölkələri arasında 34-cü, 41 milyard dollarlıq həcminə görə isə 2013-cü ildə 14-cü yerdə idi. İranda kənd təsərrüfatında orta illik artım 0,9 milyard dollardan çoxdur. Kənd təsərrüfatı məhsullarının adambaşına həcmi 1970-2013-cü illər ərzində 10 dəfədən çox artaraq 2013-cü ildə 530 dollara çatıb.

Sadaladığımız bu rəqəmlər sübut edir ki, İrana tətbiq edilən sanksiyalar neft və qaz ixracını məhdudlaşdırsa da, kənd təsərrüfatının geniş miqyasda inkişafını stimullaşdırdı. Dövlət tərəfindən kənd təsərrüfatına xüsusi qayğının göstərilməsi, xüsusilə dövlətin maliyyə dəstəyi, kənd təsərrüfatı məhsullarının ixracının təşviq edilməsi və kənd təsərrüfatı məhsullarının zəruri hallarda dövlət tərəfindən satınalma mexanizmləri İranda kənd təsərrüfatının inkişafına ciddi təkan verdi. Qeyd edək ki, İranda adambaşına kənd təsərrüfatı məhsullarının həcmi son 30 ildə dünyada mövcud olan orta həcmdən təqribən 15-20% çox olub. Buna baxmayaraq, son illərdə kənd təsərrüfatı məhsullarının ÜDM-də payı

azalmaqdadır. 1979-cu ildən 2004-cüilədək kənd təsərrüfatı məhsulları ÜDM-in həcmində 10%-dən 19%-dək dəyişirdisə, son 7 ildə bu rəqəm 8%-ə qədər azalıb. Bu azalma kənd təsərrüfatı məhsullarının ümumi həcminin azalması ilə yox, ÜDM-in ümumi həcminin artması ilə daha çox bağlıdır.

İran dünyanın geniş turizm potensialı olan ən qabaqcıl on ölkəsindən biridir. Lakin hələ də bu potensialdan tam istifadə edilmir. Turizm sənayesindən əldə edilən gəlirlərin səviyyəsinə görə İran dünya ölkələri arasında 68 yerdədir. Əhalinin məşğul hissəsinin yalnız 1,2%-i turizm sektorunda fəaliyyət göstərir.

İran-İraq müharibəsi zamanı İranın turizm sənayesinə ciddi ziyan dəydi. Digər tərəfdən, İran iqtisadiyyatına tətbiq edilən sanksiyalar xidmət sahələrinin, xüsusilə turizmin potensialından tam yararlanmağa imkan vermir. İranda demək olar ki, turizmin bütün növlərinin inkişafı üçün geniş potensial imkanlar var. Lakin həm İrana tətbiq edilən sanksiyalar, həm də İran cəmiyyətinin İslam qanunlarına uyğunlaşdırılan daxili həyat tərzi turizmin dünyada yayılmış bəzi növlərinin geniş inkişafına məhdudiyyətlər yaradır. Xüsusilə, xarici ölkələrlə turizm səsində əməkdaşlıq xeyli məhdudlaşdırılıb. Xarici ölkələrdən İrana gələn turistlərin sayı İrandan xarici ölkələrə gedən turistlərin sayından dəfələrlə azdır. Digər tərəfdən, İrandan xarici ölkələr gedən turistlərin sayı da İranın iqtisadi cəhətdən inkişaf səviyyəsinə uyğun deyil və digər ölkələrlə müqayisədə xeyli azdır. Buna baxmayaraq, İranda dini turizmin və daxili turizmin xeyli inkişaf etdiyini qeyd etmək lazımdır.

İrana tətbiq edilən sanksiyalara baxmayaraq, İrandan xarici ölkələrə gedən və ya İrana gələn turistlərin sayı 1995-ci ildən sonra kəskin artıb. 1995-ci ildə İrana gələn xarici turistlərin sayı təqribən 490 min idisə, 2006-cı ildə bu rəqəm, 2,6 milyon, 2011-ci ildə isə 3,3 milyon olub. Son 20 ildə həm İrandan xarici ölkələrə gedən, həm də xarici ölkələrdən İrana gələn turistlərin sayında belə kəskin artma İranla dünya ölkələrinin mədəni və iqtisadi əlaqələrinin getdikcə inkişaf etdiyindən xəbər verir. Qərb ölkələrindən İrana gələn turistlərin əsas hissəsi tarixi və arxeoloji abidələrin olduğu regionlara, dini turizm xətti ilə gələn müsəlmanlar isə dini müqəddəs yerlərə ziyarət edirlər.

İran 12,4 milyard dollar dəyərində turizm və səyahət xidmətləri idxalı ilə dünyada 15-ci yerdə dayanır. Təəssüf ki, geniş potensialın olmasına baxmayaraq, İran turizm xidmətləri ixracı üzrə dünyada 15-ci yerdən çox aşağı yerdədir. Qeyd edək ki, Türkiyə bu sahədə Avropa İttifaqı (27 ölkə), ABŞ, Çin, Tayland, Honq-Konq və Avstraliyadan sonra 7-ci yeri tutur.

**7. İranın xarici iqtisadi əlaqələrində ticarət əlaqələri əsas yer tutur. Ticarət əlaqələrində Asiya ölkələri aparıcıdır. İranın xarici ticarət həcmi onun potensialından xeyli azdır.**

Təbii ehtiyatlarla zəngin inkişaf etməkdə olan ölkələrin əksəriyyətində emal edilməmiş məhsulların (xam malların) ixrac həcmi, emal edilən məhsulların ixrac həcmini kəskin üstələyir. İranda da xam neft və qazın ixrac həcmi digər məhsulların ixrac həcmindən xeyli çoxdur. 171,7 milyard dollarlıq İran ixracı 2013-cü ildə İran ÜDM həcmində 34,8% təşkil edib. Bu adambaşına 2216 $ edir. Müqayisə üçün qeyd edək ki, regionda neft və qaz hasil edən ölkələr arasında İran adambaşına ən az ixrac həcminə malik olan ölkədir. Məsələn, bu göstərici Azərbaycanda - 3807$, Türkmənistanda - 6011$, Qazaxıstanda - 5395 $, Qatarda - 65063$, Səudiyyə Ərəbistanında -13445 $, Bəhreyndə -18187 $ olaraq İrandan xeyli çoxdur.

**İranın xarici ticarət həcminin ÜDM-də payı (1995-2013)**

| İllər | ÜDM (mld. ABŞ dolları) | İxracın həcmi (mld.ABŞ dolları) | İxracın ÜDM payı (%) | İdxalın həcmi (mld.ABŞ dolları) | İdxalın ÜDM payı ( %) |
|---|---|---|---|---|---|
| 1995 | 110,3 | 23,4 | 21,2 | 14,1 | 12,8 |
| 2000 | 104 | 23 | 22,1 | 17,7 | 17 |
| 2005 | 205,6 | 68,4 | 33,3 | 49,2 | 23,9 |
| 2010 | 421,7 | 116,5 | 27,6 | 87,4 | 20,7 |
| 2011 | 575,4 | 154,8 | 26,9 | 93,3 | 16,2 |
| 2012 | 556,8 | 136 | 24,4 | 113,5 | 20,4 |
| 2013 | 492,8 | 171,7 | 34,8 | 138,7 | 28,1 |

Qeyd etdiyimiz kimi, bunun əsas səbəbi inkişaf etmiş Qərb ölkələri tərəfindən İrandan olan idxala, xüsusilə İrandan neft və qaz idxalına embarqoların qoyulması və İrana qarşı maliyyə sanksiyalarının tətbiq edilməsidir.

İranın ixrac etdiyi mal və xidmətlərin əsas hissəsini neft və neft məhsulları, metal filizləri, kənd təsərrüfatı məhsulları təşkil edir. İranın idxal etdiyi məhsullar arasında isə ağır maşınqayırma məhsulları, kimya məhsulları, avtomobillər, dəmir, polad, mineral xammal, tekstil malları və kağız üstünlük təşkil edir. İdxal mallarına qarşı İran dövlətinin proteksionist siyasət tətbiq etməsinə baxmayaraq, bəzi malların idxal edilməsi İran iqtisadiyyatı üçün vacibdir. Məsələn, hazırda İran iqtisadiyyatı kağızın və ya bəzi ağır sənaye

malların idxalını əvəz etmək gücündə deyil. Lakin elə məhsullar da vardır ki, onların idxalı İran iqtisadiyyatında zərurət hesab edilmir və onların idxalına ciddi fiskal və ya gömrük məhdudiyyətləri qoyulur. Məsələn, minik avtomobillərinin və ya İranda istehsal olunan yüngül sənaye mallarının idxal edilməsinə qoyulan məhdudiyyətlər daxili bazarın qorunması və iqtisadi asılılığın azalması məqsədilə edilir.

İran OPEC-in (Neft İxrac edən Ölkələrin Təşkilatı) və OGEC-in təsisçilərindən biridir. Neft və qaz ixracının İran ixracında əsas yer tutmasına baxmayaraq qeyr-neft ixracı da getdikcə artmaqdadır. Xüsusilə, xalça və avtomobil ixracı getdikcə İran ixrac potensialında mühüm yerləri tutmaqdadır. Meyvə, sement, kürü, tekstil mallarının ixrac həcmi də ildən ilə artmaqdadır.

İranın xarici iqtisadi əlaqələrində əsas ticarət tərəfdaşları Çin, Rusiya, Yaponiya, Almaniya, İtaliya, Fransa, Türkiyə və İraqdır. İran sənayesində istifadə edilən yüksək texnologiya və texniki avadanlığın əsas hissəsi Almaniyadan idxal edilir. İslam İnqilabından əvvəl İran iqtisadiyyatında hegemon mövqeyə malik olan ABŞ artıq öz mövqeyini tamamilə itirib. Keçən əsrin ortalarından başlayaraq İran daha çox "cənub" inteqrasiyasına üstünlük verərək Hindistanla, Çinlə, Kuba ilə, Venesuela, Cənubi Afrika və Suriya ilə ticarət əməkdaşlığı qurmağa çalışır. İranın Hindistanla olan ticarət əlaqəsi artıq 13 milyardı ötüb. Türkiyə və Pakistanla olan ticarət əlaqəsinin həcmi də ilbəil artır. Birləşmiş Ərəb Əmirlikləri isə İranın xarici iqtisadi əlaqələrində ən mühüm tərəfdaşlardandır. İran bu ölkəyə investisiya yönəldən əsas ölkələrdəndir.

İranın idxal etdiyi mallar arasında əsas yeri polad, benzin və taxıl tutur. Dəmir və polad idxalı 2009-cu il ərzində ən əsas idxal məhsulu olaraq, ümumi idxalın dəyərinin 3,92%-i, benzin idxalı ümumi idxalın 3,22%-ni, taxıl idxalı isə ümumi idxalın 2,61%-ni təşkil edib. 2013-cü ildə 140 milyarda yaxın idxal həcmi olan İranın idxal tərəfdaşları arasında Çin (10%-dən çox) , Almaniya (20%-dən çox), Cənubi Koreya (6%-dən çox), Yaponiya (16%-dən çox), Böyük Britaniya (8%-dən çox), Fransa (4%-dən çox), Rusiya (4%-dən çox) və İtaliya (7%-dən çox) əsas yer tuturlar. İran bu ölkələrin əksəriyyətindən yeni texnika və texnologiya, Rusiyadan isə həm də öz iqtisadiyyatı üçün vacib olan xammal idxal edir.

2013-cü ildə 170 milyard dollarlıq ixrac həcmi olan İranın əsas ixrac tərəfdaşları Almaniya, Çin, İtaliya, bəzi ərəb ölkələri və MDB ölkələridir. İranın ixrac əməliyyatlarında İslam Əməkdaşlıq Təşkilatı ölkələri (bəzi illərdə 38%-dən çox), Avropa İttifaqı ölkələri (bəzi illərdə 31%-dən çox) və İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri ( bəzi illərdə 23%-dən çox) əsas yeri

tutur. İxrac mallarının strukturunda isə əsas yeri neft və qaz təşkil etsə də qeyri-neft məhsullarının ixrac həcmi ilbəil artır. 2013-cü ilin statistik məlumatlarına əsasən İrandan qeyri-neft məhsullarının ixrac həcmi 30 milyard dolları aşıb. İxracat məhsulları içərisində xalça və xalça məhsulları, təzə meyvələr, quru meyvələr, balıq kürüsü, dəri və dəri məmulatları çoxluq təşkil edir. Bu məhsulların içərisində xalça və xalçaçılıq məhsulları 40% - dən çox paya malikdir.

İranın beynəlxalq iqtisadi əlaqələrini dünya üzrə orta rəqəmlərlə müqayisəsi belə bir nəticəyə gəlməyə imkan verir ki, 1982-ci ildən başlayaraq İranın adambaşına ixrac və idxal həcmi dünya üzrə olan rəqəmdən kəskin azdır. Lakin idxal və ixracın ümumi həcminin dünya üzrə orta həcmdən ən azı iki dəfə az olması şərti ilə bu həcm davamlı olaraq artır. İslam İnqilabından sonra İranın xarici iqtisadi əlaqələrinin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, 1993-ci ildən başlayaraq idxal mallarının həcminin ÜDM-də payı dünya üzrə orta göstəricidən xeyli azdır.

İxrac və idxal məhsullarının strukturuna əsasən demək olar ki, hələ də xammal ixracı İran ixracında əsas yer tutur. 2012-ci ilin statistik məlumatlarına əsasən kənd təsərrüfatı məhsulları ixracda 5,7%, idxalda 24,5%, sənaye məhsulları ixracda 17%, idxalda isə 62,6%, mədən və yanacaq məhsulları ixracda 77,2%, idxalda isə 2,5% paya malik olub.

Qeyd edək ki, maye qaz ixracı qeyri-neft məhsulları ixracı kimi statistik məlumatlara daxil edildiyindən İranın qeyri-neft məhsulların ixrac həcmi xeyli artmış olur. Əslində qeyri-neft məhsulları ixracatı hesabatından maye qaz ixracatının çıxarılması məqsədəuyğun olardı. İran Ticarətinin İnkişafı Təşkilatının statistik məlumatlarına və bəyanatlarına görə 2009-cu ilin qeyri-neft məhsulları ixracatında maye qazın ixracatı nəzərə alınmazsa, qeyri-neft məhsulları ixracatının dəyəri 4 milyard 257 milyon dollar olar. Qeyri-neft məhsulları ixracatının dəyərində maye qaz ixracatının payı 1 milyarddan, yəni 25%-dən çoxdur. Əslində maye qazın ixracı neft məhsulları ixracında yer almalıdır. Qeyd etmək lazımdır ki, ölkənin ən çox ixrac olunan 10 məhsul növündən 8-i məhz neft və neft kimyası məhsullarına aiddir. İxracatda mühüm yer tutan digər 3 qeyri-neft məhsulu isə püstə, xalça və kibritdir. Bu 3 məhsul ölkənin ümumi qeyri-neft məhsulları ixracı dəyərinin 40%-dən çoxunu təşkil edir.

### 8. İranın Dünya Ticarət Təşkilatı (DTT) ilə əməkdaşlığı genişlənməkdədir. Lakin İranın DTT üzvlüyü ehtimalı çox azdır.

İran DTT-na üzv olmaq üçün fəaliyyət proqramı və zəruri sənədləri

hazırlayaraq 1996-cı ildə bu təşkilatın katibliyinə təqdim edib. Lakin məsələnin bir neçə dəfə müzakirə olunmasına baxmayaraq İranın bu təşkilata üzv olması ABŞ tərəfindən əngəllənib. İranın DTT-na üzvlüyünün digər üzv dövlətlər tərəfindən də uzadılması bir-birini tamamlayan iki əsas səbəblə izah oluna bilər. Birincisi, İran iqtisadiyyatının "özünəməxsusluğu" və inkişaf etməkdə olan ölkələr üçün nümunə rolunun oynaya bilməsidir. Əgər İran DTT-na üzv olarsa, onda İrana qoyulan embarqolar ləğv edilməli və İran malları üçün dünya bazarı açılmalıdır. DTT-na daxil olduğu halda İran ixrac potensialını genişləndirməklə yanaşı geniş həcmli birbaşa xarici investisiyaları cəlb etmək imkanı qazanmış olur. Bu, İranın regionda iqtisadi cəhətdən güclənməsi və öz rəqabət qabiliyyətini artırması demək olar.

İkinci səbəb İranın "iqtisadi modeli" və həyata keçirdiyi iqtisadi siyasətin mahiyyəti ilə bağlıdır. Belə ki, DTT-nın tələbləri İranı bu modeldən uzaqlaşmağa və iqtisadi islahatlar qəbul edərək öz "iqtisadi müstəqillik" iddialarından əl çəkməyə yönəlib. Əgər İran DTT-na üzv olarsa, onda o, öz üzərinə çoxlu beynəlxalq öhdəliklər götürməli, Konstitusiya, əmək qanunu, ticarət qanunu, xarici investisiya qanunu, sığorta haqqında qanun, bankçılıq qanunu, gömrük qanunu, vergi qanunu və s. kimi qanunlarda dəyişiklik edilməli və iqtisadi islahatlar aparmalıdır. Birincisi səbəb DTT üzvlərinə, ikinci səbəb isə İrana aid olan səbəbdir. Bu və digər səbəblər İranın yaxın gələcəkdə DTT- yə üzvlüyünün hələ mümkün olmayacağını deməyə əsas verir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

**1.** İranın qeyri-neft sektoru, onun kredit ixracatı. "Dəyan" jurnalı İİR, Tehran, 2006 №1, s. 54;

**2.** İranın qeyri-neft sektoru, onun kredit ixracatı. "Dəyan" jurnalı İİR, Tehran 2006 №2, s. 26-27;

**3.** İranın qeyri-neft sektoru, onun kredit ixracatı. "Dəyan" jurnalı , İİR, Tehran 2007 №3, s. 51-52;

**4.** İİR-nin ixrac potensialının neft və qeyri-neft sektorlarının payı. AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2010 №1, s. 307-310;

**5.** Qloballaşmanın İranın xarici ticarətinə təsiri. AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2010 №2, s. 92-95;

**6.** İranın xarici iqtisadi əlaqələrində kənd təsərrüfatının inkişafının rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi Əsərləri, 2010 № 2, s. 146-151;

**7.** Neft hasil edən ölkələrdə transformasiya prosesinin xüsusiyyətləri. Azərbaycan İqtisadiyyatına keçid dövrünün başa çatması: Təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri mövzusunda Respublika elmi-praktiki konfransının materialları. Bakı, 2010, s. 341-342;

**8.** Rəqabətin inkişaf etməkdə olan ölkələrin və İranın iqtisadi inkişafına təsiri. AMEA-nın Xəbərləri İqtisadiyyat elmləri seriyası, 2010 №4, s. 54-59;

**9.** Влияние проблемы развития нефтяного сектора страны на социальное самочувствие людей. Отклоняюшееся поведение человека в современном мире: проблемы и решения: Материалы Международной заочной научно практической конференции. Владимир, 12 мая 2010 г. с. 387-390;

**10.** Проблема международной торговли Ирана. Молодой ученый. – Чита, 2010, Т.I, № 5 (16). с.196-199;

**11.** Интеграция Ирана в мировую экономику. Журнал научных публикации аспирантов и докторантов. Курск, 2010, № 7 (49). с. 26-28;

**12.** Ərzaq təhlükəsizliyinin təmin olunmasında beynəlxalq təşkilatların rolu. “Avropa” nəşriyyatı. s. 376-377;

**13.** A survey of the impact of oil price on economic growth of İran by the comparison of economic sectors performance. Kanada-SCRO Annual Report Journal, 2014. s.131-135.

**Катрин Пайкани Гейдар кызы**

## Место Иранской экономики в системе мирового хозяйства и ее стратегия развития

**Резюме**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Значимость и актуальность представленной работы, отраженные во введении, заключаются в том, что после Иранской Исламской Революции изменилась модель Иранской экономики и основным приоритетом экономической политики стали само обеспечение и осуществление экономической безопасности. Но такая экономическая политика не исключает активную внешнеэкономическую деятельность, а наоборот, требует новый подход к сотрудничеству с мировым хозяйством, который обязует защищать и развивать частное предпринимательство, его самостоятельность с одной стороны, и осуществление государственного вмешательства и контроля - с другой.

Основная цель исследования – анализ динамики развития и структуры внешнеэкономической деятельности Иранской экономики за последнее 30 лет, а также выявление стратегических приоритетных сфер для конкурентоспособного сотрудничества с мировым хозяйством.

В первой главе рассмотрены теоретико-методологические основы внешнеэкономической деятельности и неизбежность экономического сотрудничества Ирана с мировым хозяйством. Проанализированы основные характеристики внешнеэкономической деятельности Ирана в условиях глобализации.

Во второй главе дана оценка внешнеэкономическим связям Ирана с мировым хозяйством в различных сферах. Исследованы основные факторы внешнеэкономической деятельности Ирана, в том числе внешняя торговля и туризм.

В третьей главе исследованы основные стратегические направления для развития конкурентоспособного внешнеэкономического сотрудничества Ирана с мировым хозяйством для совершенствования структуры внешней торговли и обеспечения экономической безопасности в условиях экономических и финансовых санкций.

Результаты диссертационного исследования в виде конкретных теоретических выводов и практических рекомендаций отражены в заключение работы.

**Katrin Paykani Heydər**

## İran economy in the world economy system and its development strategy

### Abstract

Dissertation consists an introduction, three chapters, conclusion and references.

Significance of the research, reflected in the introduction, is that the Iran economy model changed after Iran Islamic Revolution and its essential priority became self-sufficiency and providing economic security. However, this model does not rule out any foreign economic activity, vice versa, this model is demanding new methods of approach for relationship with world economy. New economic model chosen by Iran is demanding to protect and to develop private entrepreneurship and their independence, from one side, and to carry out state intervention to economy and state control, from other side. Liberalism for any small and middle business structures in the within country, and state intervention to economy and state control over economy in the external economic relations, are specific features of the Iran economy.

Essential purpose of the research is to reveal some strategic priority spheres of the Iran economy for its competitiveness in the world economy by analyzing of development dynamics and structure of external economic relationship during last 30 years.

In first chapter, there were examined theoretical and methodical base of external economic relationship, and inevitability of economic relationship of Iran with world economy. There were analyzed essential features of Iran economy connected with globalization.

In second chapter, there were evaluated Iran foreign economic relationship with world economy in different sphere. There were investigated some factors of foreign economic activity of Iran, including foreign trade and tourism. As well as there were investigated relationship of Iran with the WTO, and its membership to the WTO.

In third chapter, there were investigated essential strategic directions to develop competitive foreign economic relationship of Iran with world economy to improve of the foreign trade structure and to provide economic security in condition of economic and financial sanctions against Iran by some West countries.

The findings of the dissertation reflected in conclusion as concrete theoretical outcomes and practical recommendations.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100